www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-06 (1767) 31 mart 2023-cü il



# ATU Elm və Təhsil Nazirliyi tərəfindən təltif edilib

**Əcnəbi tələbələrin cəlbinin təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqlənməyimiz əsas götürülüb**

səh. 2

## Türkiyə səfiri ATU-nun rektoru ilə görüşüb

səh. 2

## Türkiyədə çalışmış həkimlərimizə fəxri fərmanlar verilib

səh. 5

## Əczaçı tələbələr üçün işləmək imkanı

səh. 4



## Azərbaycanda təhsil alan hər üç əcnəbidən biri ATU-nun tələbəsidir

Rektor, professor Gəray Gəraybəyli: Xarici tələbələrimizin sayının artması bizdən dərsin keyfiyyətini və tədris vəsaitlərinin müasirliyini tələb edir

səh. 3

## Ümummilli Liderin 100 illiyinə həsr edilmiş konfrans

*Ümumdünya Ağız Boşluğunun Sağlamlığı Günü ilə əlaqədar tədbir keçirilib*

səh. 5

## Vərəmlə mübarizədə heç vaxt arxayınlaşmaq olmaz

*Rafiq Bayramov: Bu xəstəlikdən ölənlərin sayı koronavirus pandemiyası başlayandan sonra artıb*

səh. 4



## “Fəxr et ki, qardaşın Vətən uğrunda şəhid olacaq”

Tibb xidməti giziri Sadiq Feyziyev kiçik bir kənddə doğulsa da, bütün Azərbaycanın oğlu oldu

səh. 6

# Türkiyə səfiri ATU-nun rektoru ilə görüşüb



**Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahid Bağcı Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin qonağı olub.**

Görüş zamanı səfir ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərini qeyd edərək, bu əlaqələrin bir çox sahələri, o cümlədən təhsil sahəsini də əhatə etdiyini vurğulayıb. O, Azərbaycan Tibb Universiteti kimi nüfuzlu, beynəlxalq səviyyəli təhsil müəssisəsinin fəaliyyətini yüksək qiymətləndirərək, ATU ilə Türkiyənin ali təhsil müəssisələrinin əməkdaşlığına dəstək verməyə hazır olduqlarını ifadə edib. Səfir, həmçinin ATU-da təhsil alan Türkiyə vətəndaşlarının burada əcnəbi tələbələr üçün yaradılan şəraitdən razılıqlarını da rektora çatdırıb.

Professor Gəray Gəraybəyli Azərbaycan və Türkiyə arasında təhsil sahəsindəki əlaqələrin inkişafında səfirliyin oynadığı rolu xüsusi vurğulayıb. O, ATU-da təhsil səviyyəsinin daha da yüksəldilməsinə xidmət edən islahatlar, universitetin 3 ixtisas üzrə beynəlxalq akkreditasiyadan keçməsi və digər nailiyyətlərimiz barədə məlumat verib. Rektor hazırda universitetdə təhsil alan 2873 əcnəbi tələbənin 1069 nəfərinin Türkiyədən olduğunu qeyd edib. Professor G.Gəraybəyli xarici tələbələrin qəbul prosesinin şəffaf şəkildə, elektron qaydada aparıldığını bildirərək, ATU-nun Türkiyə universitetləri ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə Türkiyənin Azərbaycandakı səfirliyinin yeni təhsil müşaviri Nurullah Yazıçı, ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev də iştirak edirdilər. Söhbət zamanı Türkiyə universitetləri ilə ikili diplom mövzusunda, eləcə də təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb, birgə layihələrə toxunulub.

**Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrin cəlbinin təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqləndiyinə görə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif edilib. Nazirlik əcnəbilərin sayında son 5 tədris ili üzrə artım dinamikası, tələbələrin qəbulu və məlumatların toplanılması sistemlərinin səmərəli istifadəsi, əcnəbi tələbələrin ictimai-sosial aktivliyinin təmin edilməsi kimi meyarları nəzərə almaqla ATU-nu təltif edib.**


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

TƏŞƏKKÜRNAMƏ

AZƏRBAYCAN TİBB UNİVERSİTETİ
əcnəbi tələbələrin cəlb olunmasının təşviqi sahəsində səmərəli fəaliyyətinə görə
TƏLTİF EDİLİR

NAZİR EMİN ƏMRULLAYEV

# ATU Elm və Təhsil Nazirliyi tərəfindən təltif edilib

## Əcnəbi tələbələrin cəlbinin təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqlənməyimiz əsas götürülüb



Təqdimat mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov əcnəbilərin cəlbinin təşviqinin prioritet istiqamətlərdən biri kimi dəyərləndirilməsi və bu çərçivədə irəliləyişlərə nail olunması istiqamətində vacib məsələlərə dair məlumat verib. Eyni zamanda, sözügedən sahədə birbaşa fəaliyyət göstərən təhsil müəssisələrinin rolunu qeyd edərək bu istiqamətdə gələcəkdə daha çox işlərin görülməli olduğuna və əcnəbilərin təhsilinə diqqətin artırılmasının əhəmiyyətinə toxunub.

Əcnəbi tələbələrin cəlb olunmasının təşviqində səmərəli fəaliyyətinə görə təşəkkürnamə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayevə təqdim olunub. Qeyd edək ki, Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrin sayına görə ölkənin lider universitetidir. Hazırda ATU-da 48 xarici ölkədən 3 minə yaxın vətəndaş təhsil alır. Görüşdə ATU-nun xarici tələbələrlə iş üzrə dekanı, dosent Natiq Bayramov, xarici tələbələrlə iş üzrə dekan müavini Nəzrin Musabəyova iştirak edirdilər.



# Akademik Zərifə Əliyeva adına liseydə xeyriyyə aksiyası

**Akademik Zərifə Əliyeva adına liseydə Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının təşkilatçılığı ilə müəllim və şagirdlər üçün tədbir keçirilib.**

Görkəmli akademikin 100 illik yubileyinə həsr olunmuş bu tədbirdə kafedranın müdiri, professor Paşa Qəlbinur Musayev çıxış edib. O, görkəmli alim-oftalmoloqun keçdiyi zəngin həyat yolundan və genişspektrli fəaliyyətindən söhbət açıb. Ölkəmizdə oftalmologiya sahəsinin inkişafının bugünkü səviyyəsinə görə onun müstəsna rolunu qeyd edib.

Tədbirdə səsləndirilən çoxsaylı suallar professor tərəfindən cavablandırıldıqdan sonra xeyriyyə aksiyası keçirilib. Kafedranın əməkdaşları tərəfindən liseyin müəllim və şagirdləri müxtəlifyönlü oftalmoloji müayinə olunub, onlara həkim-mütəxəssislər lazımi tövsiyələrini verib.

Təşkil olunan aksiya liseyin əməkdaşları və şagirdləri tərəfindən razılıqla qarşılanıb.

# Zəlzələdə həyatını itirən tələbə və məzunlarımız anılıb

**Türkiyədə baş verən dəhşətli zəlzələdə həyatını itirən Azərbaycan Tibb Universitetinin tələbə və məzunlarının anım mərasimi keçirilib. ATU-nun Xarici tələbələrlə iş üzrə dekanlığı və Türkiyə-Azərbaycan Tələbə Birliyinin birgə keçirdiyi tədbirin əvvəlində təbii fəlakət nəticəsində həlak olan insanların ruhu bir dəqiqəlik sükutla yad edilib.**



Tədbir iştirakçıları çıxışlarında çoxsaylı insan tələfatına, tarix və mədəniyyət abidələrinin, infrastruktur obyektlərinin dağılmasına səbəb olan bu böyük fəlakətin bütün türk dünyasında kədər doğurduğunu bildiriblər. Qeyd edilib ki, zəlzələdə həlak olan azərbaycanlı tələbələrdən biri Gündüz Nəzərzadə 2020/2021-ci tədris ilində ATU-nun Əczaçılıq fakültəsindən məzun olub. O, təhsilini Malatyanın İnönü üniversitetinin əczaçılıq fakültəsində davam etdirirdi. Qardaş Türkiyədə baş verən zəlzələ qurbanlarından biri isə Stomatologiya fakültəsinin 5-ci kurs (418A-2b qrupu) tələbəsi Nazif Toprakdır.

Tədbir iştirakçıları bu gənclərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralanan və xəsarət alanların tezliklə sağalmasını arzulayıblar.

# Tələbələrimizin elmi-tədqiqat işlərinə marağı yüksəlir

## İctimai səhiyyə fakültəsi üzrə məruzələrin sayı bir ildə iki dəfəyə yaxın artıb

**Martın 29-da ATU-nun İctimai səhiyyə fakültəsi Tələbə Elmi Cəmiyyətinin "Düşüncədən elmi uğura doğru" başlığı altında 46-cı konfransı keçirilib. Tədbir 3 bölmə - İctimai sağlamlıq; Biokimya, epidemiologiya və yoluxucu xəstəliklər; Mikrobiologiya və ağciyər xəstəlikləri üzrə təşkil olunub.**



Konfransı açan fakültə dekanı, dosent Qalina Qəniyeva bildirib ki, TEC-in bu ilki konfransı Ulu Öndər Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın yüz illiklərinə təsadüf edir.

Tədbirdə çıxış edən universitetin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov tələbələrə təcrübi biliklərin aşılanmasında, onların elmi-tədqiqat işinə maraqlarının artırılmasında və gələcəyin mütəxəssisi kimi yetişdirilməsində TEC-in böyük əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, ildən-ilə bu cəmiyyətlərdə iştirak etmək istəyənlərin sayı artır: "Məlumat üçün bildirim ki, vaxtilə mən 20 il TEC-in rəhbəri olmuşam. Bu gün çox sevindirici haldır ki, TEC öz işini təkmilləşdirir və tələbələrimizin elmi-tədqiqat işlərinə marağı çoxalır. Ötən il konfransda məruzələrin sayı 45 idisə, bu il artıq 80-ə yaxın məruzəçi iştirak edir. Bildiyiniz kimi, universitetimizdə 3 mindən çox xarici tələbə təhsil alır. Onların 27 nəfəri TEC-in üzvü olmaq üçün bizə müraciət edib. Bu müraciətlər nəzərə alınıb və İraq Respublikasından olan tələbəmiz elmi işlə məşğul olmaq istəyən əcnəbilərə rəhbər təyin olunub". Çıxışının sonunda iştirakçılara ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından uğur diləyən prorektor bildirib ki, bu il 6 nəfər tələbəmiz seçilərək, TEC-in beynəlxalq konfransında iştirak edəcək.

ATU TEC-in sədri, dosent Müşfiq Həsənov çıxışında rəhbərlik etdiyi qurumun universitetin ictimai təşkilatı kimi fəaliyyət göstərdiyini xatırladıb və təşkilatda aparılan islahat və yeniliklərdən söhbət açıb. TEC-in sədri məlumat verib ki, bu konfrans dünyanı cənginə almış COVID pandemiyasından sonra ilk ənənəvi toplantıdır. Təşkilatın sıralarının ildən-ilə genişləndiyini deyən M.Həsənov bu il konfransa təqdim edilən işlərin öz aktuallığı ilə seçildiyini də dilə gətirib. O, məruzələrin əksəriyyətinin müasirliyi və təcrübi əhəmiyyəti ilə fərqləndiyini, təqdim olunan mövzuların təbabətdə həllini gözləyən problemlərə həsr olunduğunu vurğulayıb və konfrans iştirakçılarına uğurlar arzulayıb.

Sonra TEC-nin elmi rəhbəri, dosent Fərəh Baxışlı konfransda dinləniləcək məruzələr, konfransın gündəliyi, reqlamenti barədə məlumat verib. Qeyd edib ki, bu konfransın qısa müddətdə təşkilində həm ayrı-ayrı kafedralar üzrə TEC rəhbərlərinin, həm də tələbələrin böyük əməyi var.

Bundan sonra fakültə üzrə TEC sədri Fəridə Məmmədovanın təqdimatı ilə panel iclaslara başlanılıb və söz tədqiqatçı tələbələrə verilib.

İki gün davam edən konfransda proqrama əsasən İctimai sağlamlıq üzrə 22, Biokimya, epidemiologiya və yoluxucu xəstəliklər üzrə 22, Mikrobiologiya və ağciyər xəstəlikləri üzrə isə 31 məruzə dinlənilib.

Sonda TEC-in fəaliyyətini daha da yaxşılaşdırmaq üçün təkliflər irəli sürülüb, maraqlı müzakirələr aparılıb və sual-cavablarla konfrans öz işini başa çatdırıb.

Tədbirin sonunda tədqiqat işini yerinə yetirən tələbələrə sertifikatlar, ən fəal iştirak edən müəllimlərə isə diplomlar təqdim olunub.

**Martın 30-da Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclası açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilk öncə ATU-nun Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayevin öz ərizəsinə əsasən səhiyyə nazirinin əmri ilə vəzifəsindən azad edildiyini və Fərid Eyvazovun klinikaya direktor təyin olunduğunu bildirib. Rektor yeni direktoru şura üzvlərinə təqdim edərək vurğulayıb ki, F.Eyvazov bizim universitetin məzunudur və çalışdığı sahə üzrə bacarıqlı mütəxəssisdir.**

# Azərbaycanda təhsil alan hər üç əcnəbidən biri ATU-nun tələbəsidir

## Rektor, professor Gəray Gəraybəyli: Xarici tələbələrimizin sayının artması bizdən dərsin keyfiyyətini və tədris vəsaitlərinin müasirliyini tələb edir




Bundan sonra professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb. Ardınca Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayevin “Azərbaycan Tibb Universitetinin 2022-ci il ərzində beynəlxalq əlaqələri və qarşıda duran vəzifələr” adlı hesabat məruzəsi dinlənilib.

Çıxışında universitetin beynəlxalq əlaqələrindən geniş bəhs edən prorektor hesabat dövründə bir çox nailiyyətlərin əldə edilməsindən və prorektorluğun hesabat ili ərzində gördüyü işlərdən danışıb. Xarici tələbələrin sayının ildən-ilə artdığını və ATU-nun beynəlxalq əməkdaşlıq coğrafiyasının genişləndiyini söyləyən prorektor, slayd vasitəsilə bu günkü mənzərəni müqayisəli formada təqdim edib. Bildirilib ki, Beynəlxalq əlaqələr üzrə prorektorun kurasiya etdiyi struktur vahidlərinə Xarici tələbələrlə iş üzrə dekanlıq və Beynəlxalq əlaqələr şöbəsi də daxildir.

Sözünə davam edən O.İsayev nəzərə çatdırıb ki, Azərbaycanda təhsil alan əcnəbilərin hər üç nəfərindən biri ATU-da təhsil alır və universitetimiz əcnəbi tələbələrin cəlbinin təşviqi və təhsilinin təşkili sahəsində xüsusi fərqləndiyinə görə bu günlərdə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə təltif edilib: “Diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycan Elm və Təhsil Nazirliyinin ilin yekunlarına dair hesabatında Azərbaycan Tibb Universiteti 2501 tələbə ilə ölkədə lider mövqe tutub. Qeyd edim ki, bura Hazırlıq kursunda təhsil alan dinləyicilər daxil edilməyib. Nazirlik əcnəbilərin sayında son 5 tədris ili üzrə artım dinamikası, tələbələrin qəbulu və məlumatların toplanılması sistemlərinin səmərəli istifadəsi, əcnəbi tələbələrin ictimai-sosial aktivliyinin təmin edilməsi kimi meyarları nəzərə alıb. Ümumilikdə isə hazırda ATU-da hazırlıq kursu, baza ali tibb təhsili, bakalavr, rezidentura, magistratura və doktorantura pillələri üzrə 48 ölkədən 2873 nəfər əcnəbi təhsil alır. Baza ali tibb təhsili və bakalavr pilləsində 2384 nəfər, rezidenturada 73, magistraturada 2, doktoranturada 1, hazırlıq kursunda isə 413 nəfər. Cədvələ diqqət yetirsək görə bilərik ki, son ildə əcnəbi tələbələrin sayı öncəki ilə nisbətdə artıb. Belə ki, universitetimizdə 2021-2022-ci tədris ilində 2801 əcnəbi tələbə təhsil alırdısa, hazırda bu rəqəm 2873-dür. Əcnəbi tələbələrin təmsil etdiyi ölkələrə isə 1069 nəfərlə qardaş Türkiyə liderlik edir. İkinci yeri 902 nəfərlə İrandan olan tələbələr, növbəti yerləri İraq, Suriya, Hindistan, Rusiya, İordaniya və s. ölkələrdən olan tələbələr tutur”.

Prorektorun sözlərinə görə, ATU-nun tədris proqramlarının akkreditasiyadan uğurla keçməsi xarici ölkələrdən olan tələbələrin sayına da öz təsirini göstərib. Bunu xüsusilə Hindistan, Pakistan və Suriya üzrə görmək olar: “Baza ali tibb təhsili və bakalavr pilləsi üzrə də keçən ilə nəzərən artım müşahidə olunur. 2021-2022-ci tədris ilində bu rəqəm 2222 nəfər olub, hazırda isə 2384-dür. Onların fakültələr üzrə paylanmasına baxdıqda görürük ki, ən çox tələbə (884 nəfər) Stomatologiya fakültəsindədir. Digər yerləri isə 688 nəfərlə II Müalicə-profilaktika, 594 nəfərlə I Müalicə-profilaktika və 218 nəfərlə Əczaçılıq fakültələri tutur. Tələbələrin təhsil aldıqları tədris dilinə baxsaq, ən çox tələbə - 1225 nəfər Azərbaycan dilində təhsil alır. 1096 nəfərin təhsili ingilis, 63 nəfərinki isə rus dilindədir. İngilis dilində təhsil alanların sayının artması bizdən müvafiq addımlar atmağı və ingilisdilli müəllimlərin daha çox olmasını tələb edir.



Hazırda hazırlıq kursunda 413 nəfər təhsil alır. Dinləyicilərin fakültələr üzrə paylanmasına baxdıqda, ən çox dinləyici müalicə işi ixtisasını seçib və 199 nəfərdir. 177 nəfər stomatologiya və 29 nəfər isə əczaçılığı seçib. Əczaçılıq fakültəsi üzrə azalma haqqında ətraflı analizə ehtiyac var. Bölmələr üzrə Azərbaycan dilində 251 nəfər, ingilis dilində 160 nəfər və rus dilində 2 nəfər təhsil alır”.

Rezidenturaya əcnəbi vətəndaşların qəbulunun universitetin rektoru tərəfindən yaradılmış xüsusi komissiya tərəfindən aparıldığını deyən O.İsayev bildirib ki, son 5 ildə bu komissiyaya o özü sədrlik edir və bura qəbul edilən əcnəbilərin sayında da artım hiss olunur: “2021-2022-ci ildə 23, 2022-2023-cü ildə isə 25 nəfər qəbul edilib. Hazırda ATU-da 16 ölkədən 73 nəfər rezident təhsil alır. Ölkələr üzrə paylanmasına baxsaq, birinci yerdə 27 nəfərlə Rusiya, ikinci yerdə Türkiyə, 3-cü yerdə isə İran gəlir. İxtisaslar üzrə təsnifatlaşdırsaq, ən çox tələbə mama-ginekologiya ixtisası üzrə təhsil alır. Növbəti 11 nəfər dermatovenerologiya, 9 nəfər şüa-diaqnostika, 7 nəfər ağız və üz-çənə cərrahiyyəsi, 5 nəfər oftalmologiya, 3 nəfər plastik cərrahiyyə, 3 nəfər ortopedik stomatologiya və 19 nəfər digər 14 ixtisas üzrə təhsil alır. Hazırda magistratura səviyyəsi üzrə 2 nəfər - 1-i əczaçılıq texnologiyası, 1-i isə səhiyyə menecmenti ixtisası üzrə təhsil alır. 1 nəfər Kamerun vətəndaşı magistraturanı ötən il bitirib. Həmçinin doktorantura üzrə 1 nəfər təhsil alır və ixtisası ürək-damar cərrahiyyəsidir. Təbii ki, ATU-nun potensialını nəzərə alsaq, bu rəqəmləri artırmaq mümkündür”.

Əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərin ATU-ya qəbulunun 2018-ci ildən elektron formada, admission.amu.edu.az veb portalı üzərindən aparıldığını bildirən məruzəçi, illər üzrə portala edilmiş müraciətlər, qəbul olunanlar və müsahibədən keçə bilməyənlərin sayının nümayiş etdirilən infoqramda əks olunduğunu söyləyib: “Cədvəldən də göründüyü kimi, müraciət etmiş şəxslərin orta hesabla 60-70 faizə qədəri universitetə qəbul olunub.

Hörmətli Gəray müəllimlə dəfələrlə apardığımız müzakirələrdə ATU-ya qəbul olunacaq əcnəbilərin sayının artırılması və bu istiqamətdə görüləcək işlər barəsində fəaliyyət planının hazırlanması ideyası məqsədəuyğun hesab edilib.

Çıxışında miqrasiya mövzusuna da yer ayıran natiq bildirib ki, Xarici tələbələrlə iş üzrə dekanlığın funksiyalarından biri də əcnəbilərin miqrasiya məsələlərinə dəstək verməkdir: “İldən-ilə əcnəbi tələbələrin sayının artması ilə əlaqədar olaraq, universitet bəzi addımlar atıb. Fürsətdən istifadə edərək rektorumuza öz təşəkkürümüzü bildirmək istərdik ki, dekanlığa yeni koordinator işə götürülüb.

Diqqətinizə çatdırım ki, cənab Prezidentimizin 6 dekabr 2017-ci il tarixli Sərəncamı ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları, eləcə də 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris dilinə uyğun hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, tibb təhsili üzrə əsas təhsil və rezidentura səviyyələrində təhsil qrantı proqramları təsis edilib. Bu yolla ATU-da 33 tələbə təhsil alır”.

Hesabat dövrü ərzində keçirilən mühüm tədbirlərə və cari məsələlərə də toxunan O.İsayev 30 xarici tələbənin BAMF-ın keçirdiyi təhsil layihəsində iştirak etdiyini, portal.edu.az və atis.edu.az veb portallarına yeni məsul işçi götürüldüyünü, hazırlıq kursuna daxil olan bütün əcnəbi vətəndaşların tibbi sığorta olunduğunu, hazırlıq kursunda sillabusların yenilənməsinə başlanıldığın deyib, eləcə də bir sıra təkliflərini diqqətə çatdırıb.

İclasda çıxış edən Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev və Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli hesabatı müsbət qiymətləndirməklə yanaşı, universitetimizin son zamanlar beynəlxalq aləmdə nüfuzunun yüksəlməsindən məmnunluqla bəhs ediblər. Onlar kafedraların beynəlxalq əlaqələrinə toxunub, həmçinin əməkdaşların xarici ölkələrə səfərləri zamanı səmərəli əməkdaşlıq nəticəsində faydalı işlər ortaya qoyulduğunu vurğulayıblar. Çıxış edənlər bütün bunlarla yanaşı, həm də mövcud problemlərin həlli istiqamətində öz təklif və rəylərini dilə gətiriblər.

Çıxışları yekunlaşdıran professor Gəray Gəraybəyli hesabatı qənaətbəxş hesab etdiyini və hər bir ali məktəbdə xarici tələbələrin sayının çox olmasının onun beynəlxalq aləmdə nüfuzunun göstəricisi kimi qəbul edildiyini deyib. Diqqəti beynəlxalq münasibətlərə yönəldən universitetin rəhbəri müəllimlərin ingilis dilini mənimsəməsini önə çəkib və gələcəkdə əcnəbi tələbələrin sayının daha da artırılması istiqamətində səmərəli addımların atılmasının vacibliyini vurğulayıb: “Xarici tələbələrimizin sayı 3000-ə yaxınlaşır, bu fərəhləndirici haldır. Əlbəttə ki, bu, ATU-nun nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də universitetin fəaliyyətinə maddi baxımdan müsbət təsir edir. Lakin onların sayı artdıqca, problemlərin də sayı artır. Çünki ingilis dilini bilən müəllimlərə də tələbat artır. Tələbələrin sosial şəraitini də nəzərə alsaq, bu da əlavə bir çətinlikdir. Ona görə də bu məsələləri nəzərə almaqla, həm xarici tələbələrimizin sayını çoxaltmalı, həm də bizimlə əməkdaşlıq edən ölkələrin coğrafiyasını genişləndirməliyik. Artıq neçə ildir ki, bizə müraciət edən xarici tələbələrin sayındakı artımı nəzərə alıb, onların arasında seçim apara bilirik. Bu da bizdən dərsin keyfiyyətini və tədris vəsaitlərinin müasirliyini tələb edir. Müxtəlif dövlətlərin nümayəndələri, o cümlədən ölkəmizdəki səfirləri ilə görüşlərimdə onlar haqlı olaraq həmvətənlərinin Azərbaycanda ingilis dilində təhsil almaq istədiklərini bildirirlər”.

Tədris prosesinin zamanın tələbləri səviyyəsində qurulmasının, beynəlxalq əlaqələrin genişləndirilməsinin prioritet istiqamət olduğunu vurğulayan rektor, nəzərə çatdırıb ki, gələcəkdə işə qəbul olunan hər bir mütəxəssisin ümumi biliyi ilə yanaşı, ingilis dili biliyi də yoxlanılmalıdır: “Artıq neçə ildir ki, biz ingilis dili kurslarının hazırlığına başlamışıq, bu, müəllimlərimizin dil biliklərinin təkmilləşməsində mühüm rol oynayacaq. Qarşımızda duran əsas məsələ beynəlxalq proqramlarda bizim müəllim-tələbə heyətinin aktiv iştirak etməsi və dünyanın qabaqcıl elm qurumları ilə daha yaxın əlaqələr yaratmaqdır. Bildiyiniz kimi, beynəlxalq aləmə çıxışımız getdikcə genişlənir və bir sıra universitetlərlə ikitərəfli memorandumlar imzalamışıq”.

Müxtəlif məsələlərə də toxunan professor G.Gəraybəyli bildirib ki, bu günlərdə Travmatologiya və ortopediya kafedrasının professoru, t.e.d. Eldar Abbasov bu kafedraya məsləhətçi-professor, Ailə təbabəti kafedrasının məsləhətçi-professoru, t.e.d. Cəbrayıl Məmmədov isə yenidən həmin kafedraya məsləhətçi-professor seçilməsi barədə müraciət ediblər.

Hər iki müraciəti təsdiqləyən şura, İran İslam Respublikasının vətəndaşı Ali Soltani Germi Masoudun təhsil xərcinin ATU-nun daxili imkanları hesabına ödənilməsi və Türkiyə Cümhuriyyəti vətəndaşı Hatice İlik tərəfindən ATU-ya ödənilmiş məbləğin geri qaytarılması məsələlərinə də münasibət bildirib.

Böyük Elmi Şura elmlər doktoru işlərinin mövzusu və elmi məsləhətçini, eləcə də dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrini təsdiqləməklə və müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırıb.

**M.ƏLƏKBƏRLİ**

## Aktual mövzuda elmi seminar “Heydər Əliyev İli”nə həsr olunmuşdu



**Martın 29-da ATU-nun Ağciyər xəstəlikləri kafedrasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Vərəm qlobal problemdir” adı altında elmi seminar keçirilib. Tədbirdə kafedranın əməkdaşları, rezidentlər və tələbələr iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan kafedra müdiri Rafiq Bayramov Ulu Öndərin siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ölkəmizdə səhiyyə və tibb təhsili sahəsinə xüsusi qayğı ilə yanaşdığını bildirib. Sonra kafedranın əməkdaşı Zeynəb Qurbanova “Vərəm qlobal problemdir” mövzusunda məruzə oxuyub. O qeyd dib ki, bu gün də vərəm dünyada tibbin aktual problemlərindən biridir. ÜST-ün məlumatına əsasən, dünyada ölümün 10 əsas səbəblərindən biri vərəm xəstəliyidir. Hər il dünyada 10 milyondan çox insan vərəmlə xəstələnir, təxminən 2 milyona yaxın insan bu xəstəlikdən dünyasını dəyişir.

Qarşılıqlı diskussiya şəraitində keçən seminarda vərəmin dərmanlara davamlı formaları, COVID-19 və vərəmin birgə gedişi, həkim-klinisistlərin qarşılaşdığı problemlər müzakirə olunub.

## Vərəmlə mübarizədə heç vaxt arxayınlaşmaq olmaz

### Rafiq Bayramov: Bu xəstəlikdən ölənlərin sayı koronavirus pandemiyası başlayandan sonra artıb

**1882-ci il martın 24-də Robert Kox vərəmin törədicisi olan mikobakteriyaları kəşf edib. Ona görə də 24 mart Ümumdünya Vərəmlə Mübarizə Günü kimi qeyd olunur. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, vərəm hazırda da dünyada ölümə səbəb olan əsas infeksion xəstəliklərdən biridir.**

Vərəmə yoluxanların, xəstələnənlərin və həmin xəstəlikdən dünyasını dəyişənlərin sayı müxtəlif dövrlərdə artıb-azalır. Birinci Dünya müharibəsi dövründə müharibədə ölənlərin sayı 1,7 milyon nəfər olduğu halda, həmin dövrdə yalnız Rusiyada vərəmdən ölənlərin sayı 2 milyonu ötüb. İlk vərəm əleyhinə dərman olan streptomisinin 1944-cü ildə kəşf edilməsi və vərəmin müalicəsində yüksək effektivliyi ötən əsrin ortalarında hətta tibb ictimaiyyətində vərəm xəstəliyinin kökünün kəsilməsi fikrinin formalaşmasına səbəb olub. Ancaq müəyyən müddətdən sonra rezistentliyin formalaşması ilə əlaqədar vərəmin epidemioloji göstəriciləri pisləşdi. Tarixdə buna bənzər bir çox hallar olub. Ona görə də vərəmlə mübarizədə heç zaman arxayınlaşmaq olmaz.

Bunu AZƏRTAC-a müsahibəsində universitetimizin Ağciyər xəstəlikləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent Rafiq Bayramov deyib.

R.Bayramovun sözlərinə görə, koronavirus pandemiyasına qədərki son illərdə dünyada vərəmin epidemioloji göstəricilərində bir qədər müsbət dinamika və nisbi stabillik hökm sürürdü. Ancaq koronavirus pandemiyası vərəmlə mübarizə tədbirlərinə də ciddi mənfi təsir göstərdi. Son on ildə ilk dəfə olaraq vərəm xəstəliyindən ölənlərin sayı koronavirus pandemiyası başlayandan sonra artıb. Belə ki, əvvəlki illərdə hər il vərəmdən ölənlərin sayı 1,4 milyonu ötmədiyi halda, 2020-ci ildə bu göstərici 1,5 milyon, 2021-ci ildə isə 1,6 milyon olub.

Mütəxəssis bildirib ki, vərəm də son illər dünyada ciddi gərginliyə səbəb olan COVID-19 infeksiyası kimi əsasən aerogen, yəni tənəffüs yolu vasitəsilə yoluxur. Xəstəliyin əsas yoluxma mənbəyi vərəm çöpü ifraz edən ağciyər vərəmi olan xəstələrdir. Həmin xəstələrin öskürməsi və asqırması nəticəsində, yəni hava-damcı yolu və yaxud onların bəlğəmi ilə çirklənmiş torpaqdan hava-toz yolu ilə yoluxma daha çox müşahidə edilir. Bundan başqa, vərəmə qida, təmas və s. yollarla da yoluxmaq mümkündür. Vərəm çöpləri ilə yoluxma xəstələnmə üçün vacib olsa da, başlıca amil deyil. Çünki vərəm çöpləri yoluxduğu orqanizmdə latent, yəni “yatmış” formada qalaraq xəstəlik törətməyə bilər və yaxud immunitetin zəiflədiyi zaman aktiv formaya keçərək xəstəlik törədə bilir. Son illər dünyada dərmanlara rezistent vərəmə yoluxma və xəstələnmə hallarının ilbəil artması epidemioloji vəziyyətin daha da gərginləşməsinə səbəb olur. Buna görə də həmin istiqamətdə mübarizə tədbirlərinin gücləndirilməsi lazımdır.

"Vərəm xəstəliyinə ən çox tənəffüs orqanlarında, ağciyərlərdə rast gəlinsə də, orqanizmin bütün orqan və sistemlərinin vərəm mənşəli zədələnməsi mümkündür. Vərəmin lokalizasiyasından asılı olmayaraq həmin xəstəlik üçün xas olan simptomlar axşamlar zəif subfebril hərarətin - 37,2-37,4° C olması, gecələr səhərə yaxın boyun, ənsə və kürək nahiyəsinin tərləməsi, arıqlama, ümumi halsızlıq, zəiflik əlamətlərinin qabarıq büruzə verməsidir. Ən çox ağciyərlərin vərəminə rast gəlindiyi üçün qeyd etmək lazımdır ki, ağciyər vərəminin müxtəlif formalarında daha çox müşahidə edilən əlamətlər 3 həftədən çox davam edən öskürək, bəlğəm ifrazı, döş qəfəsində ağrı, təngnəfəslik və qanhayxırmanın olmasıdır. Qeyd edilən simptomların bir və ya bir neçəsinin olması heç də həmin insanın vərəmlə xəstə olmasını təsdiq etmir. Ancaq sadalanan əlamətlər vərəmə şübhə yaradır və müşahidə edildikdə həkim-mütəxəssisə müraciət etmək məsləhət görülür", - deyə R.Bayramov qeyd edib.

## Əczaçılıq fakültəsində dekan seçkisi keçirilib

**Martın 14-də Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsində dekan seçkisi keçirilib. Fakültə Elmi Şurasının genişləndirilmiş iclasını universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb.**



Tədbir iştirakçılarını salamlayan prorektor, gündəlikdə duran məsələyə keçməzdən öncə bəzi məqamlara toxunub. Prorektor bir neçə gün əvvəl Səhiyyə Nazirliyinə dəvət olunduqlarını, görüş zamanı əczaçılığın müəyyən problemləri, xüsusilə də ayrı-ayrı institutlarda, hətta texnikumlarda əczaçılığın tədrisi ilə bağlı geniş müzakirələrin aparıldığını xatırladıb. Qeyd edib ki, müzakirələrdə bu fakültənin fəaliyyətinə çox ciddi nəzər yetirildiyi bir daha aydın olub. Bundan başqa, universitetimizin üç ixtisası, o cümlədən əczaçılıq üzrə beynəlxalq akkreditasiyadan keçməsini böyük nailiyyət kimi dəyərləndirən S.Əliyev bildirib ki, bu uğur istər-istəməz xarici tələbələrin universitetimizə axınına stimul verir. “Perspektivli gənc kadrların hazırlığı, əsasən də onların dil öyrənmələri daim diqqət mərkəzində saxlanılmalıdır” – deyən prorektor, eyni zamanda əməkdaşların nizam-intizam, etik davranış qaydalarına ciddi riayət etməsinin zəruriliyini də vurğulayıb. Həmçinin mühazirə mətnlərinin universitetin saytında yerləşdirilməsi, ekspertlərin testləri vaxtında hazırlanması və tələbələrə qayğı göstərilməsi istiqamətində görüləsi işlərdən danışıb.

Universitetin Elmi katibi, professor Nazim Pənahov keçən il dosent Kamandar Yaqubovun Tədris departamentinin rəhbəri təyin olunduğunu və bu səbəbdən Əczaçılıq fakültəsinin dekanı vəzifəsini tutmaq üçün müsabiqə elan edildiyini bildirib. O, mövcud əsasnaməyə uyğun olaraq həmin vəzifəyə namizədliyi irəli sürülən dosent Fərəh Mədətlinin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verib.

Dekanlığa namizəd, dosent F.Mədətli öz platformasını təqdim edərək, seçiləcəyi təqdirdə doğma universitetin, Əczaçılıq fakültəsinin imicini yüksəltməyə, tələbələrin nəzəri bilik və praktik vərdişlərinin daha da artırılmasına çalışacağını söyləyib.

Bundan sonra üç nəfərdən ibarət hesablayıcı komissiya formalaşdırılıb. Komissiyanın elan etdiyi nəticəyə görə, dosent F.Mədətli gizli səsvermə yolu ilə Əczaçılıq fakültəsinin dekanı seçilib.

Son dövrlərdə fakültə dekanlarına geniş səlahiyyətlər verildiyini xatırladan S.Əliyev, bunun həm də böyük məsuliyyət yaratdığını diqqətə çatdırıb, indiyədək böyük təcrübə toplayan Fərəh xanımın ona göstərilən bu etimadı doğruldacağına əminliyini ifadə edib və uğurlar arzulayıb.

## Fakültə TEC-in konfransında 5 elmi iş bəyənilib



**Martın 9-da Şüa diaqnostikası və terapiyası kafedrasında Tələbə Elmi Cəmiyyətinin ilkin seçim konfransı keçirilib. Tədbiri giriş sözü ilə II Müalicə-profilaktika fakültəsi TEC-in sədri Eyyub Miriyev açaraq, Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti və aparılan elmi-tədqiqat işləri haqqında məlumat verib. Cəmiyyətin istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılmasında mühüm rol oynadığını qeyd edib.**

Adıçəkilən kafedranın müdiri, professor Məlahət Sultanova ötən il II MPF üzrə keçirilən TEC-in konfransında rəhbərlik etdiyi kafedradan təqdim olunan işin 1-ci yerə layiq görüldüyünü bildirib: “Kafedramız hər il TEC-in təşkilində fəal iştirak edir. Bunu uğurlarımızın nəticəsi hesab etmək olar. Bu il tələbələri qiymətləndirmək üçün münsiflər heyətinə Şüa diaqnostikası və terapiyası kafedrasından dosent Hicran Əsgərova, Ümumi cərrahiyyə kafedrasından assistent Elnur Qasımov, Normal fiziologiya kafedrasından assistent Günay Eminova seçiliblər”.

Qeyd edək ki, konfransda radiologiyadan 8 elmi iş dinlənilib və münsiflər tərəfindən Azərbaycan bölməsi üçün 4, ingilis bölməsi üçün 1 elmi iş bəyənilib. Tələbələrdən Vüsal Ramazanov, Şafax Əsgərova, Zeynəbxanım Həbibova, Zivər Hüseynova, Zöhrə İsmayılova, Sənan Rüstəmov, Omama Maan Salim, Mohammad NM Zaid, Abdullah Chhab fakültə TEC-in konfransında iştirak etmək hüququ qazanıblar.

## Tələbələrmiz Milli Oftalmologiya Mərkəzində



**Əczaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin fəal üzvləri Milli Oftalmologiya Mərkəzini ziyarət edərək qurumun işi ilə yaxından tanış olublar.**

ATU-nun Farmakoqnoziya kafedrasının dosenti Nərgiz Məmmədovanın rəhbərliyi ilə baş tutan ziyarət zamanı əvvəlcə Akademik Zərifə Əliyevanın büstü önünə gül dəstələri qoyulub. Milli Oftalmologiya Mərkəzinin Elmi təşkilati, tədris və metodik bölməsinin müdiri, t.ü.f.d. Yazgül Abdıyevanın müşayiəti ilə tələbələr mərkəzdə yerləşən Akademik Zərifə Əliyeva adına muzeydə saxlanılan eksponatlar haqqında da bilgi əldə ediblər. Gənclər, həmçinin mərkəzin kitabxanasındakı tibbi ədəbiyyat nümunələri ilə tanış olublar.

Milli Oftalmologiya mərkəzinə tanışlıq ziyarətində universitetin TEC sədri E.Miriyev və Əczaçılıq fakültəsinin tələbələri L.Yusifova, M.Məmmədova, Ə.Zərbalıyev, N.Rəhimova O.Məmmədova, T.Rəhimov, N.Hüseynli də iştirak ediblər.



## Əməkdaşımız Türkiyədə elmi konfransda çıxış edib

**ATU-nun I Cərrahi xəstəliklər kafedrasının assistenti Azər Hümmətov Türkiyədə keçirilən 11-ci Endokrin Cərrahiyyə Konfransında iştirak edib.**

ATU təmsilçisi konfrans iştirakçıları qarşısında “Tiroid düyünlərinin diaqnostikasında elastosonoqrafiyanın rolu” mövzusunda çıxış edib, öz təcrübəsini bölüşüb. Doktor A.Hümmətov, həmçinin tiroid düyünlərinin diaqnostika və müalicə üsulunun seçimində TİRADS və Bethesda təsnifatlarının birgə tətbiqinin əhəmiyyəti ilə bağlı da elmi məruzə edib. ATU əməkdaşının konfrans çərçivəsində “Azərbaycanın şəhər əhalisində COVID-19 pandemiyası və postpandemiya zamanı Vitamin D səviyyəsinin dəyərləndirilməsi” mövzusunda poster çıxışı da olub.

Müxtəlif ölkələrdən həkim və mütəxəssislərin iştirak etdiyi konfransda paralel sessiyalarda ümumilikdə 100-dən çox məruzə səsləndirilib.

## Əczaçı tələbələr üçün işləmək imkanı



**Əczaçılıq fakültəsi, “AVİS tibbi mağazalar şəbəkəsi” və “Əczaçılar Klubu” İctimai Birliyinin birgə layihəsi çərçivəsində “Əczaçılıqda peşəkarlığa doğru” adlı tədbir keçirilib.**

Fakültənin tələbələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə dekan, dosent Fərəh Mədətli açıb. O, tələbələrə təqdim olunacaq təcrübə proqramı barədə ətraflı məlumat verərək, bunun ölkəmizdə bir ilk olduğunu bildirib. Qeyd edib ki, 2 aylıq təcrübəni uğurla başa vuran tələbələrə sertifikat veriləcək.

Tədbirdə “Əczaçılar Klubu” İctimai Birliyinin sədri Şövqi Bünyatov, “AVİS”in İnsan resursları şöbəsinin rəhbəri Afaq Əhmədpaşayeva, filial rəhbərləri Leyla Allahverdiyeva, Nərmin Xəlilova da çıxış ediblər. Onlar çalışdıqları şirkət və təqdim etdikləri proqramın mahiyyəti barədə ətraflı məlumat verərək, bunun tələbələrin təcrübə qazanmasında müstəsna rolu olacağından danışıblar.

Qeyd edək ki, proqramda iştirak könüllü xarakter daşıyır. Əczaçılıq sahəsində tanınmış mütəxəssislər tələbələrə 2 aylıq təlim keçəcək. Sonda qazandıqları təcrübə ilə bağlı imtahandan uğurla keçənlərə sertifikatlar veriləcək, arzu edənlər işlə təmin olunacaq.

Proqramın təqdimatı tələbələr tərəfindən maraqla qarşılanıb və sual-cavab şəklində davam edib.

# Ümummilli Liderin 100 illiyinə həsr edilmiş konfrans

## Ümumdünya Ağız Boşluğunun Sağlamlığı Günü ilə əlaqədar tədbir keçirilib



**Martın 15-də ATU-da Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş 20 Mart - Ümumdünya Ağız Boşluğunun Sağlamlığı Günü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.**

Konfransı açan ATU-nun Terapevtik stomatologiya kafedrasının professoru Rizvan Məmmədov bildirib ki, 2008-ci il martın 20-dən etibarən hər il Ümumdünya Stomatoloji Federasiyası - FDI-nin təşəbbüsü ilə Ümumdünya Ağız Sağlamlığı Günü qeyd olunur: “Məqsəd diş sağlamlığı ilə bağlı qlobal problemlərə ictimaiyyətin diqqətini maksimum dərəcədə artırmaq, ağız xəstəliklərinin qarşısının alınması, erkən aşkarlanması və müalicəsinə yanaşmalar, eləcə də onların inkişafına səbəb olan risk faktorları, dişlərin və periodontal toxumaların sağlamlığının bütün orqanizmin digər orqan və sistemlərinin sağlamlıq səviyyəsi ilə əlaqəsi, ağız boşluğunun gigiyenası qaydalarına riayət edilməsinin vacibliyi haqqında əhalinin məlumatlılığını artırmaqdır”. Bildirilib ki, bu il yaranmasının 25-ci ildönümünü qeyd edən Azərbaycan Stomatoloji Assosiasiyası (ASA) Ümumdünya Stomatoloji Federasiyasının digər proqram və tədbirləri kimi bu kampaniyaya da dəstək göstərməkdədir.

ASA-nın prezidenti, əməkdar elm xadimi, professor Rəna Əliyeva assosiasiyanın yaranması və fəaliyyəti barədə məlumat verib: “Assosiasiyamız 1997-ci ildə təsis olunub və yarandığı gündən başlayaraq, beynəlxalq aləmdə nüfuz dairəsini genişləndirib. Təşkilatımız artıq 1998-ci ildən etibarən beynəlxalq stomatoloji forumlarda aktiv iştirak edərək, respublikamızda da stomatologiyanın müxtəlif sahələrinə həsr olunmuş beynəlxalq konfrans və simpoziumlar təşkil edib. Əsas məqsədlərimizdən biri ondan ibarət idi ki, ASA hər zaman dünya stomatologiyasına inteqrasiya olunmaq üçün addımlar atsın. Çünki dünyadakı stomatoloji yenilikləri, texnologiyaları əldə etmək, bu sahədəki praktikanı genişləndirmək ölkə stomatologiyasına müasirlik gətirməyə imkan verir”.

Sözünə davam edən R.Əliyeva vurğulayıb ki, FDİ-də fəaliyyətini uğurla davam etdirən ASA 2005-ci ilin nəticələrinə görə beynəlxalq təşkilatın inkişaf fondunun donorlarından biri kimi tarixə düşüb: “ASA mütəmadi olaraq Azərbaycanda beynəlxalq stomatologiyanın aktual problemlərinə həsr olunmuş konfranslar keçirib. Bununla yanaşı, ASA-nın nümayəndələri hər il FDİ tərəfindən təşkil edilən bütün konqreslərdə yaxından iştirak ediblər. ASA-nın işinin əhəmiyyətli mərhələlərindən biri də assosiasiyamızın dövri mətbuat orqanının yaradılmasıdır. “Qafqazın Stomatoloji Yenilikləri” adlı dərgimiz apardığımız işlərin hesabatlarını, qarşıda dayanan məqsəd və məramımızı oxucuların diqqətinə çatdırır. Dərginin redaksiya heyətinə MDB-nin və digər xarici ölkələrin görkəmli alimləri daxildir”.

Bundan sonra t.ü.f.d. İsmayıl Yaqublu “Sagital anatomiya okkluzisiyası olan pasiyentlərdə alt çənə hərəkətləri və qamət pozuntularının əldə edilmiş rəqəmsal məlumatların qarşılıqlı əlaqələri” və t.ü.f.d Sevinc Nağıyeva “Şəkərli diabetli uşaqlarda diş əti xəstəliklərinin diaqnozu və müalicəsi” mövzularında çıxış ediblər.

Konfransda ATU-nun Ortopedik stomatologiya kafedrasının professoru Zöhrab Qarayev, Tədris Stomatoloji Klinikanın direktoru, t.ü.f.d. Mahir Səfərov, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, eləcə də bu sahəyə dair kafedraların mütəxəssisləri, tələbələr və rezidentlər iştirak edirdilər.

**Martın 16-da Tədris Cərrahiyyə Klinikasında qardaş Türkiyədə baş vermiş zəlzələ zamanı Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının fəaliyyətinə həsr olunmuş tədbir keçirilib.**

# Türkiyədə çalışmış həkimlərimizə fəxri fərmanlar verilib

## Oktay Mehtiyev: Bu, Könüllü Həkimlər Assosiasiyasının ilk beynəlxalq layihəsi idi






Könüllü həkimlərimizin zəlzələ zonasında fəaliyyəti haqqında ətraflı məlumat verən assosiasiyanın sədri, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının assistenti Oktay Mehtiyev Fövqəladə Hallar Nazirliyi (FHN) ilə birgə Kahramanmaraş şəhərində mobil səhra hospitalı qurmalarından və ən çox yadda qalan hadisələrdən söhbət açıb.

O, assosiasiya üzvlərinin Türkiyədə təbii fəlakətin baş verdiyi ilk gündən FHN-ə müraciət etdiklərini və müsbət cavab aldıqdan sonra fəaliyyətə başladıqlarını bildirib: “Fevralın 10-da Fövqəladə Hallar Nazirliyinin tibbi heyəti ilə birlikdə ümumi cərrah, anestezioloq-reanimotoloq, travmatoloq, üz-çənə cərrahı, stomatoloq, terapevt və cihazların quraşdırılması üçün tibbi texniklərdən ibarət 15 nəfərlik heyətlə Kahramanmaraş şəhərində təbii fəlakət nəticəsində zərər çəkənlərə tibbi yardım göstərməyə yollandıq. Yük təyyarəsi ilə süni tənəffüs aparatları, cərrahi masalar, cərrahi işıqlar, qısası, bir klinikanın tam normal fəaliyyət göstərməsi üçün lazım olan bütün tibbi avadanlıqlar aparmışdıq. Bizdən əvvəl orada zərərçəkənlərə tibbi yardım göstərmək üçün FHN-in bir hospitalı fəaliyyət göstərirdi. Şəhərin bələdiyyə stadionunda 8 çadırdan ibarət ikinci tibbi hospital açdıq. Hospitalda 2 cərrahiyyə masasından ibarət əməliyyat bloku, 8 çarpayılıq reanimasiya, intensiv palata və 8 adi palatada ambulator şöbə həyatın ağır sınağı ilə üzləşən sakinlərə xidmət göstərdi. Blokların hər biri Fövqəladə Hallar Nazirliyi tərəfindən təchizatla təmin edilmişdi”.

O.Mehtiyevin sözlərinə görə, assosiasiyanın üzvləri 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Cəbrayıl, Şuşa, Laçın, Zəngilan, Qubadlı və Şuşadakı tibb məntəqələrində növbəli şəkildə çalışıblar: “Könüllü həkimlərimiz həm də Şuşa-Laçın yolunda keçirilən ekoloji fəalların etiraz aksiyasının ilk günündən iştirakçıların sağlamlığının keşiyində dayanıblar. Türkiyədə baş verən zəlzələdən zərər çəkənlərə göstərilən tibbi yardım isə assosiasiyanın ilk beynəlxalq layihəsidir”.

Təkcə tibbi yardımla kifayətlənməyən heyət xeyriyyə aksiyaları da təşkil edərək, çadır şəhərciklərində insanlara Azərbaycan xörəkləri, şirniyyatlar paylayıb, qardaşlıq sevgilərini bölüşüblər. Əsas məqsəd insanların psixoloji durumunu yüngülləşdirmək, uşaqları bir masa ətrafına toplayaraq onlara mənəvi dəstək vermək olub. “Ağır günün ömrü az olar deyiblər”. Türk qardaşlarımız bu ağır günlərdə onlara uzanan dost əllərini heç vaxt unutmayacaqlarını bildiriblər.

Tədbirdə Azərbaycan Könüllü Həkimlər Assosiasiyasının xətti ilə Kahramanmaraş şəhərində zəlzələdən zərərçəkənlərə on gün ərzində fasiləsiz yardım edildiyi vurğulanıb. Belə ki, gün ərzində minimum 60-70, bəzi günlərdə isə 120-150 zərərçəkənə tibbi xidmət göstərilib. On gündən sonra 15 nəfərlik heyət geri qayıtsa da, Türkiyədə çalışan azərbaycanlı uzmanlar aksiyaya qoşularaq zərərçəkənlərə tibbi xidməti davam etdiriblər.

Tədbirdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru Avcil Mücahit, Türkiyə səfirliyinin nümayəndəsi Hüseyn Altınalan, professor-müəllim heyəti və könüllü həkimlərimiz iştirak ediblər.

Sonda mobil səhra hospitalında çalışmış könüllü həkimlərimiz fəxri fərmanlarla təltif olunublar.

**Dr. Elnur İmanov Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında invaziv uşaq kardioloqu kimi fəaliyyət göstərir. O, ABŞ-ın Pediatrik İnvaziv Kardiologiya Cəmiyyəti (PİCS), Avropa Pediatrik İnvaziv Kardiologiya Cəmiyyəti (CİS) və Türkiyə Kardiologiya Dərnəyinin üzvüdür. Əməkdaşımız yerli mətbuata müsahibəsində bir çox məqamlara toxunub.**

# “Bıçaqsız, kəsiksiz ürək əməliyyatı edirik”

## Elnur İmanov: Uşaq dünyaya gələndən 18 yaşınadək periodik olaraq 5 dəfə ürək müayinəsindən keçməlidir



**- İnvaziv kardiologiya nədir?**

- Sinə yarılmadan, bud arteriyası, yaxud boyun venalarından bədənə daxil olmaqla ürək içərisində apardığımız əməliyyatlardır. Söhbət qapalı ürək əməliyyatlarından gedir. Biz bıçaqdan istifadə etmədiyimiz üçün əməliyyatdan sonra bədəndə heç bir kəsik izi olmur. Uşağı görən kimsə onun ürək əməliyyatı keçirdiyini deyə bilməz. Onu da qeyd edim ki, bu texnologiyanı ölkəyə ilk dəfə biz gətirmişik. Ancaq artıq tələbələrim də müxtəlif klinikalarda bu əməliyyatı icra edirlər.

**- Hansı ürək qüsurlarını əməliyyatsız bərpa etmək olar?**

- Uşaqlarda anadangəlmə ürək qüsurlarının 30-40 faizini qapalı yolla bərpa edə bilirik. Belə bir şüarım var: “Mən artıq ürək qüsurlu deyiləm!” Bəli, dünənədək qüsurla yaşayan uşaq əməliyyatdan dərhal sonra artıq qüsurlu deyil.

**- Ən sıx rast gələnən anadangəlmə ürək qüsurlarından biri də mədəciklərarası çəpərin qüsurudur. Bunu da invaziv yolla aradan qaldırmaq olurmu?**

- Əlbəttə! Uşaq mədəciklərarası çəpərdə qüsurla, el dili ilə desək, deşiklə doğulur. Qasıqdan daxil olmaqla və xüsusi bir avadanlıq vasitəsilə həmin dəliyi bağlayırıq. Bununla da problem aradan qalxır. Eyni üsulla qulaqcıqlararası çəpər qüsurunu da heç bir kəsik aparmadan, sırf qapalı yollarla bərpa edə bilirik.

**- Dəliyi hansı vasitə ilə bağlayırsınız?**

- Bu, xüsusi istehsal olunmuş, tor şəkilli, qapağa bənzəyən bir avadanlıqdır. Bütün dünyada bahalıdır. Çünki qızıldan da qiymətli materialdan hazırlanır. Heç bir əks təsiri yoxdur və qanla təmasda olduğu 6 ay müddətində ət toxumasına çevrilir.

**- Qalıcılığı nə qədərdir?**

- Ömürlük. Bəzi savadsız həkimlər insanları qorxudur, yalan məlumatlar yayaraq valideynləri qapalı ürək əməliyyatlarından yayındırmağa çalışırlar. Guya bu avadanlıq şüa yayır, uşağa narahatlıq verir. Amma tam yalan məlumatlardır. Əksinə, heç bir kəsik, travma olmadan həyata keçirilən ürək əməliyyatları uşaqlar üçün çox effektivdir.

**- Açıq ürək əməliyyatından fərqli olaraq, invaziv yolla həyata keçirilən ürək əməliyyatlarının bir sıra çətinlikləri var. Bu əməliyyatın icrası bir kardioloqdan hansı bacarıqlar tələb edir?**

- Çox böyük peşəkarlıq, bilik və özgüvən! Biz on addım qabağımızı görüb əməliyyata giririk ki, bir fəsad yaranarsa, dərhal müdaxilə edib aradan qaldıra bilək.

**- Nə zaman uşaq kardioloquna müraciət etmək lazımdır?**

- Uşaq dünyaya gələndən 18 yaşınadək periodik olaraq 5 dəfə ürək müayinəsindən keçməlidir. Çünki bəzi ürək qüsurları heç bir şikayət və əlamət vermir. Onu da qeyd edim ki, ürək qüsurları iki cür olur: çəhrayı və göy. Uşağın ağız kənarında göyərmə yaranırsa, bunu gözlə görə bilirik. Amma çəhrayı qüsur görünmür və gizli qalır. Onu yalnız müayinə zamanı aşkar edə bilirik.

**- Uşağın əlləri tez-tez tərləyirsə, ürək qüsurundan xəbər verir?**

- Bəli. Əllərin tərləməsi, hərəkət zamanı tez yorulmaq kimi hallar ürək qüsurunun əlamətlərindəndir. Valideyn diqqətli olmalı və bu kimi əlamətləri müşahidə edərsə, gecikmədən uşaq kardioloquna müraciət etməlidir.

**- Exokardioqrafiyanın (EXO) uşağa bir zərəri varmı? Bəzi valideynlər bundan da ehtiyat edirlər.**

- Qətiyyən. Mənə də bununla bağlı çox suallar verirlər. Bəzi valideynlər EXO-nun şüa verdiyini düşünürlər. Hətta uşağı ikinci dəfə EXO-ya yönəldəndə narahat olurlar ki, övladımıza zərəri olmaz ki? Amma əsassız məlumatlardır. Əgər belə olsaydı, ilk növbədə, illərlə EXO ilə işlədiyimiz üçün özümüz zərər görərdik. Ürək müayinəsi olduqca vacibdir. Məhz bu müayinələr zamanı qüsuru aşkar edə bilirik. Zamanında və doğru müalicə çox vacibdir.



Şəhid məzunlarımız

# “Fəxr et ki, qardaşın Vətən uğrunda şəhid olacaq”

## Tibb xidməti giziri Sadiq Feyziyev kiçik bir kənddə doğulsa da, bütün Azərbaycanın oğlu oldu

**Özünü dərk edəndən bu dünyanın fani olduğunu yaxşı bilirdi. Fikirləşirdi ki, insan bu dünyada elə yaşamalıdır ki, o dünyaya köçəndə onu tanıyanlar tərəfindən həmişə yaxşı xatırlansın, yaxşı iz qoyub getsin. Elə iz qoydu da...**

**Yardımlı rayonunun kiçik dağ kəndində - Zevində anadan olsa da, 27 yaşında Vətən uğrunda şəhidlik zirvəsinə ucalaraq, bütün Azərbaycan tərəfindən tanındı.**

Yaxşı təbi vardı. Vətən, ana, dünyanın faniliyi və s. haqda şeirlər yazırdı. Yazırdı ki:

*Neçə qapıları bağlı qoymusan,*
*Gör neçə ürəklər dağlı qoymusan.*
*Nə qədər analar ağlar qoymusan,*
*Mən sənin nəyinlə danışım, dünya?*

Doğrudan da, tibb xidməti giziri Sadiq Feyziyevin itkisi neçə ürəkləri dağladı. Amma gələcək nəsillərə örnək olan bir Vətən oğlu oldu Sadiq...



### “Təskinliyim odur ki, oğlum Vətən uğrunda canını fəda etdi”

Sanki əvvəldən ürəyinə damıbmış. Yaxın ətrafına, o cümlədən anası Gültamam xanıma da şəhid olacağını deyibmiş. Gültamam Şükürova bizimlə söhbəti zamanı oğlu haqqında kövrələrək danışdı:

- Sadiq sözəbaxan, yol göstərən övlad idi. Sonbeşik olduğu üçün onu çox istəyirdim. Son vaxtlar söz düşəndə şəhid olacağını deyirdi. Axırıncı dəfə evə 2020-ci il sentyabrın 1-də gəlmişdi. Məzuniyyətdə olduğu günlərin birində həyətdə oturmuşduq, söhbət edirdik. Sadiqin oğlu Tahir də həyətdə uşaqlarla oynayırdı. Oğlunu yanına çağırıb qucağına aldı və əmisi oğlundan xahiş etdi ki, onların şəklini çəksin. Səbəbini də izah etdi ki, dünyanın işini bilmək olmaz, bu şəkil yadigar qalsın. Onun bu sözünə pis oldum, irad tutdum. Dedi, anacan, bilmək olmaz, həyatdır...

Sentyabrın 15-i hərbi hissəyə yola düşəndə də boynumu qucaqlayıb, üzümdən öpdü. Dedi ki, ana, oğlun şəhid olacaq, xiffətini çəkib, ağlama. Özümdən asılı olmadı, onun sözlərinə ağladım, dedim, niyə elə deyirsən? Dedi, anacan, axı şəhidlikdən uca nə var ki? Şəhid olmağına olacağam, amma çalış darıxma.

Sentyabrın 27-si müharibə başladı. 28-i tezdən zəng etdi. Dedi, telefonu anama verin, onunla danışım. Özümdən asılı olmadı, ağladım, onunla danışa bilmədim. Dedi, ağlama, anacan, dua et, qoy qələbə bizim olsun!

Sadiq 2 gündən sonra daha danışmadı. Həmişə uşaqlardan soruşurdum ki, hərbçilər danışır, amma Sadiq danışmır? Deyirdilər, danışacaq. Amma danışmadı...

Şeir yazırdı, mənə də bir şeir qoşmuşdu:

*Adın müqəddəsdir hər şeydən öncə,*
*Baxışın sadədir, gülüşün incə.*
*Haqqın heç bir zaman ödənməz məncə,*
*Sən mənim dəyərli kəsimsən, ana,*
*Ömürlük sevgidə bəsimsən, ana.*

Məni çox istəyirdi. Amma gözümü yaşlı qoydu. Seyid nəslindən idi. Ona 6-cı imam Cəfəri Sadiqin adını qoymuşduq. İbadət əhli idi. Quranı oxumağı atasından öyrənmişdi. Təskinliyim odur ki, oğlum Vətən uğrunda canını fəda etdi, şəhid oldu, ruhu müqəddəslərlə bir yerdədir...

### “Hərbi feldşer olmasını özü seçmişdi”

**Atası Tahir Feyziyev:**

- Orta məktəbdə oxuduğu vaxtlar onun haqqında müəllimlərindən həmişə xoş sözlər eşitmişəm. Hərbi feldşer olmasını özü seçmişdi. 2011-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə daxil oldu. 2013-cü ildə oranı bitirdikdən sonra təyinatını Tərtərdə N saylı hərbi hissəyə verdilər. 7 il ön cəbhədə xidmət etdi. Yaxşı xidmətinə görə, xeyli təşəkkürnamələr, tərifnamələr alıb. Aprel döyüşlərinin də fəal iştirakçısı olub, yaralanmışdı. 2017-ci ildə ordumuzun yaranmasının 100 illiyi ilə əlaqədar medalla təltif olunub.

Elə öz istəyi ilə də evləndirdim. Oğlu oldu, adını qoymağı mənə həvalə etdi. Mən də öz adımı qoydum.

...Sentyabrın 26-da zəng etdi ki, ata, gəl uşaqları apar. Getdim gətirdim. Sonuncu zəngi isə sentyabrın 29-u günorta saatlarında oldu. Hər şeyin normal olduğunu söylədi. Sonra dəfələrlə zəng etsək də, ona zəng çatmadı, əlaqə kəsildi.

Oktyabrın 11-də məni Lənkəran hospitalına dəvət etdilər. Orada bildirdilər ki, şəhid olanlar var, bir müddət neytral zonada qalıblar, şəxsiyyətlərini müəyyən edə bilmirik. Ona görə DNT testi olunmalıdır. Nəsə bu söhbətdən üşəndim, ondan sonra gecələr gözümə yuxu getmədi...

...Onu da deyim ki, sentyabrın 29-da axşamtərəfi idi, yerimdə oturmuşdum, durmaq istəyəndə belimdən möhkəm ağrı tutdu, ayağa qalxa bilmədim. Elə bil belimi mişarla kəsdilər. Demə, Sadiq 29-da şəhid olubmuş, belim də elə həmin gün qırılıbmış. Qəribədir, onu dəfn edənədək belimin ağrısı çəkilmədi, ikiqat qaldım...

### “Hələ ibtidai sinifdən özünü partizan kimi aparırdı”

**Müəllimi Əzizağa Qarayev:**

- Sadiq mənim sevimli şagirdlərimdən olub. Ona ibtidai sinifdə dərs demişəm. O, məktəbə gələn ilk gündən özünü digər uşaqlardan fərqləndirməyə çalışırdı. Verilən tapşırıqları yerinə yetirir, dərslərini yaxşı oxuyurdu. Xüsusilə, Vətən müharibəsi ilə bağlı mövzulardan söhbət açanda onun necə maraqla qulaq asdığının şahidi olmuşam. Yaxşı yadımdadır, o, “Bülbül” hekayəsini danışan zaman oradakı kiçik partizanın obrazını və onun necə siqnal verməsini fərəhlə izah edirdi. Özünü sanki onun kimi aparırdı.

Bütün fənləri yaxşı mənimsəyirdi. Yalnız özünə oxşamaq istəyirdi. Özünə oxşadığı üçün də yüksək məqama çatdı, Vətən uğrunda şəhid oldu. Hesab edirəm ki, o ölməyib, bizim qəlbimizdə yaşayır. Həmişə söhbət düşəndə Sadiqi məhəbbətlə yad edir, sevə-sevə xatırlayıram. Arzu edirəm ki, oğlu Tahir də atasının adına layiq övladlardan olsun.

### “Onu seçməkdə zənnim məni aldatmadı”

**Həyat yoldaşı Nüşabə Feyziyeva:**

- Doğrudur, Sadiq Feyziyev haqqında bir həyat yoldaşı kimi danışmaq mənim üçün çox çətindir. Onunla birgə yaşadığım 3 ilik xatirələrdən nə qədər danışsam da, qurtaran deyil. Onu dürüstlüyünə, sözünə bütövlüyünə, xoş rəftarına, ən əsası isə, vətənpərvər olduğuna görə seçdim. Bilirdim ki, vətənini sevən adam ailəsini və övladını da sevər. Zənnim məni aldatmadı. Heyf ki, onu çox tez itirdik...

Çox yaxşı ailə başçısı, çox yaxşı ata idi. Oğlu Tahiri özünün davamçısı görmək istəyirdi. Həmişə söhbəti zamanı deyirdi ki, gələcəyin giziri olacaq. İnşallah, gələcəkdə oğlumuz da atasının arzusunu yerinə yetirər, onun layiqli davamçılarından olar, adını həmişə ucalarda tutar.

### “Oğlum olsa, Sadiqin adını qoyacağam”

**Tibb xidməti baş leytenantı Nicat Cəlilov:**

- Sadiqi 2016-cı ildə N saylı hərbi hissədə xidmətim zamanı tanımışam. O, taborun tibb məntəqəsinin feldşeri kimi xidmət edirdi, mən isə hərbi hissənin tibb məntəqəsindəydim. 2017-ci ildə isə yerimi onun xidmət etdiyi tabora dəyişdirdilər. O vaxtdan onun necə gözəl xasiyyətli bir insan olduğunun, nümunəvi xidmət göstərdiyinin şahidi oldum. Bəzən mənim taborla bağlı bilmədiyim məqamlar olanda Sadiqlə məsləhətləşirdim. Aramızda bir qardaş münasibəti vardı. Heç vaxt ondan narazı qalmamışam. Həmişə nizam-intizamı ilə fərqlənib, tapşırıqları vaxtlı-vaxtında yerinə yetirib. Vətənpərvər idi. Bunu şəhidlik zirvəsinə ucalması ilə də sübut etdi.

2015-ci ildə xidmət vaxtı xəsarət almışdı. 2016-cı ilin Aprel döyüşlərində də yaralanmışdı. 2-ci Vətən Müharibəsində də iştirak etdi, şəhidlik zirvəsinə ucaldı.

Sadiqi qardaşım kimi çox istəyirdim. İllərdir şəklini profilimdən götürmürəm. Demişəm ki, oğlum olsa, adını Sadiq qoyacağam.

### Qardaşının şəhid olduğunu 51 gün ailəsindən gizli saxlayıb

**Qardaşı Faiq Feyziyev:**

- O mənim kiçik qardaşım olsa da, həmişə onun məsləhətlərinə qulaq asmışam. Təkcə qardaşım deyil, həm



də bir məsləhətçim, yolgöstərənim idi.

Heç vaxt unutmuram. Axırıncı dəfə onunla sentyabrın 29-u günorta saat 12-yə 10 dəqiqə işləmiş danışmışam. Dedi, narahat olma, hər şey qaydasındadır, atamı, anamı, ailəmi, uşağımı sənə tapşırıram...

Yatdım, yuxuda Sadiqi çox qarışıq gördüm. Gecəyarısı hövlank oyandım, səhərə qədər yata bilmədim. Anam da dedi ki, bala, elə bil ürəyimdən daş



asılıb. Atamın da əvvəllər heç yanı ağrımazdı. Həmin gün belində kəskin ağrılar başladı. Artıq 2-3 gündən sonra şəxsi əlaqələrimlə öyrənə bildim ki, şəhid olub. Amma nəşi neytral zonada qaldığı üçün çıxara bilmirdilər. Sentyabrın 29-u şəhid olan qardaşım noyabrın 18-də kəndimizin qəbristanlığında dəfn olundu. Bu ağır xəbəri içimdə çəkə-çəkə 51 gün ailəmizdən gizlədim.

Sadiq xüsusi təyinatlı dəstədə döyüşüb, qərargah rəisi, kapitan Hətəmxan Quliyev də onlarla birgə olub. Atılan mərmilərdən kapitan yaralanıb. Sadiq ona ilkin tibbi yardım göstərib və döyüş meydanından çıxarmaq istəyib. Bu zaman yaxınlığa düşən raket partlayışından hər ikisi həlak olub.

Mən qardaşımla qürur duyuram. Çünki onun kimi qəhrəman oğulların sayəsində torpaqlarımız işğaldan azad olub. Göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən də qiymətləndirilib. Ölümündən sonra “Vətənə xidmətə görə” ordeni, “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

**Qardaşı Vasif Feyziyev:**

- Sadiq şəhidlik zirvəsinə ucalıb cismən bizdən ayrılsa da, onun ruhu yenə də bizimlədir. O, bir qardaş kimi həm maddi, həm mənəvi cəhətdən həmişə bizə dəstək olub. Hansısa problemim olurdusa, onunla əlaqə saxlayırdım. Telefonla danışırdım, mənə yol göstərir, məsləhətlər verirdi. Mübariz İbrahimovdan, Polad Həşimovdan sonra onun da fikrindən şəhid olmaq keçirdi. Bu barədə bir-iki dəfə mənə də demişdi. Onun haqqında çox söz demək istəyirəm, amma danışa bilmirəm. Qəbri üstünə gedəndə isə, məzarı ilə saatlarla danışıram...

### Şəhid olacağını bacısına da deyib

**Bacısı Kəmalə Feyziyeva:**

- Çox mehriban və qayğıkeş bir qardaş idi. Hər bir sirrimi onunla bölüşürdüm. Axırıncı dəfə kəndə gələndə görüşdük, başımı sinəsinə qoydu və dedi ki, bacı, ola bilsin müharibə olsun, qardaşın şəhid olacaq. Ağladım, qucaqladı, dedi, ağlama, fəxr et ki, qardaşın Vətən uğrunda şəhid olacaq. Onun itkisi mənim üçün nə qədər ağır olsa da, qardaşımla fəxr edir, qürur duyuram.

**Dayısı oğlu Aqil Fətullayev:**

- Uşaqlığımız, məktəb illərimiz və hazırlığımız bir yerdə keçib. Sadiq dürüst, mərd, qoçaq biri idi. Hazırlaşdı, elə istədiyi fakültəyə də daxil oldu. Özündən kiçiyin və böyüyün yerini bilirdi. Zəmanəmizlə uzlaşmayan, yaxşı mənada görünməyən tərəfləri vardı. Sonra hər ikimiz ali məktəbə daxil olduq. Görüşlərimiz seyrəldi. O, universiteti bitirib hərbi hissədə xidmətə başladı. Bakıya gələndə görüşür, söhbət edirdik. Mən isə Qusarda müəllim işləyirdim. Axırıncı dəfə onunla sentyabrın 24-ü danışdım. Danışdığımızdan 4-5 gün sonra Sadiqdən xəbər tuta bilmədik. Bir müddətdən sonra eşitdik ki, şəhid olub...

**Qabil ZİMİSTANOĞLU**



**Rozasea - üz dərisində qızartı və irinli səpgilər müşahidə olunan xroniki dəri xəstəliyidir. Xəstələr əsasən üzdə qaşıntı, qızartı və yağlanma problemindən şikayətlənirlər. Xəstəlik və onun müalicə yolları ilə bağlı Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin dekanı, Dermatovenerologiya kafedrasının dosenti Elşad Novruzov geniş açıqlama verib.**

# Üz dərisində qızartı və irinli səpgilər yaradan xəstəlik

## İlk baxışdan yaxşı təsir göstərən kremlər, sonradan fəsadlara səbəb ola bilər



E.Novruzov adıçəkilən xəstəliyin ekzogen və endogen səbəblərindən söhbət açıb. O, həkim-mütəxəssis tərəfindən araşdırıldıqdan sonra endogen səbəbin müalicəsinə qərar verildiyini bildirib. Ekzogen səbəblərin isə stres, Günəş şüaları, isti mühit, isti-soyuq hava, külək, spirtli və qaynar içkilər olduğunu qeyd edib: “Bəzi insanlar həyəcanlandıqda, stres keçirdikdə və ya sevindikdə yanaq və sinə nahiyəsində qızartılar əmələ gəlir. Bu da dərini qidalandıran damar və kapilyarların səthdə yerləşməsi ilə əlaqədardır. Mənfi və müsbət emosiyalar səngiyəndən sonra qızartının çəkildiyi müşahidə olunur. Gənc yaşlarında damarlar elastik olduğu üçün qızartının heç bir iz buraxmadan çəkilməsi baş verir. Amma yaşlandıqca damar və kapilyarların elastikliyi pozulur, bir müddət keçdikdən sonra damarların yığılması qızartıların yanaq nahiyəsində qalmasına səbəb olur”.

E.Novruzov xanımların bəzən özünümüalicəyə üstünlük verməsinə, bunun isə fəsadlara səbəb olmasına da toxunub: “Bəzən xanımlarımız dərilərinin hamar, parıltılı olması, üzlərindəki ləkənin necə aparılması ilə bağlı rəfiqələrindən, tanışlarından məsləhətlər alırlar. Onların məsləhət gördüyü kremlərdən istifadə edirlər. Onların arasında kortikosteroid tərkibli kremlər də var. Xanımlar bu kremlərdən ilk dəfə istifadə etdikdə onların xoşuna gəlir. Dəri ağarır, parıldayır, ləkələr itir. Amma bir müddətdən sonra kremi ardıcıl vurmağa məcbur olurlar. Çünki istifadə etməyəndə, dəridə qaşıntı və quruma əmələ gəlir. Bu kremlərdən uzun müddət istifadə etdikdə isə, atrofiya baş verir, dəri nazilir, quruyur və tüklənməyə səbəb olur”.

# Böyrəklərin sağlamlığı üçün gündə 2 litr su içilməlidir

**Böyrək daşı problemindən əziyyət çəkən şəxslər tərkibində oksalat maddəsi olduğu üçün xüsusən çərəz, ispanaq və kakao istehlakını azaltmalıdır. Bunu ölkə mətbuatına açıqlamasında Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkim-nefroloqu Barat Yusubov deyib.**



Protein, kalsium və xüsusilə də pomidorda olan oksalat maddəsinin böyrəklərin fəaliyyətinə mənfi təsir göstərdiyini qeyd edən mütəxəssis deyib: “Böyrək daşı olanlar protein qəbuluna diqqət etməlidir. Yemək qəbulu zamanı protein qəbul edirsinizsə (hər hansı ət və ya ət məhsulu), digər yemək qəbulu zamanı lifli qidalara üstünlük verin, əgər səhər çox miqdarda pendir yeyirsinizsə, günorta ət xörəyi yeməyin".

Nefroloqun sözlərinə görə, kifayət qədər su istehlakı maddələr mübadiləsinə müsbət təsir edir: “Beləliklə, böyrəklərdə kristallaşma azalır, mövcud olan kiçik kristallar orqanizmdən ifraz olunur. Az su içildiyində isə, maddələr mübadiləsi zəifləyir və böyrəklərdə daş əmələ gəlməsinə səbəb olan kalsium, oksalat kimi maddələr kristallaşmağa başlayır, zaman keçdikcə daşa çevrilir. Böyrəklərinizdə daş əmələ gəlməməsi üçün gündəlik olaraq 2 litrə yaxın su qəbul edin. Əgər siz 2 litr su içib, gündəlik o suyun bədəndən ifraz olmadığını, şişkinlik yaratdığını hiss edirsinizsə, su miqdarını azaltmalı və həkimə müraciət etməlisiniz".

# Dünya şöhrətli alim məruzə oxuyub

**Tədris Terapevtik Klinikada dünya şöhrətli alim, uşaq nevroloqu, Fransanın Paris şəhərində yerləşən Deskorte Universitetinin professoru Olivye Dülak tərəfindən “Beynin inkişaf etapları və EEQ-in neyrofizioloji əsasları” mövzusunda elmi-praktik seminar keçirilib.**



Konfrans çərçivəsində uşaqlarda mərkəzi sinir sisteminin bətndaxili periodda inkişafı, böyüməsi və funksiyaların formalaşması barəsində yeni məlumatlar verilib. Məlum olduğu kimi, son illər erkən neonatal və uşaqlıq dövründə meydana çıxan bir çox xəstəliklərin təməli məhz bətndaxili periodda qoyulur. Bunun üçün də müasir nevrologiya və pediatriya ixtisaslarının qarşısına qoyulan tələblərdən biri geniş yayılmış patologiyaların erkən aşkarlanması və müdaxilə prosesidir.

Mühazirə zamanı neonatal dövrdə diaqnostika üçün istifadə olunan EEQ monitorinqin və eləcə də ENMQ üsulların vacibliyi və zənginliyi vurğulanıb. Vaxtında və vaxtından əvvəl doğulan uşaqların EEQ monitorinq zamanı beyin aktivliyinin fərqliliyi və tipik neonatal EEQ-in mənzərəsi xırda detallarla nəzərə çatdırılıb.

Seminarda ATU-nun Nevrologiya kafedrasının əməkdaşları və rezidentləri, eləcə də müxtəlif bazalarda çalışan həkim və rezidentlər iştirak ediblər.

# Uşaq cərrahlığı kafedrasının elmi seminarı keçirilib

**Martın 27-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında Uşaq cərrahlığı kafedrasının elmi seminarı keçirilib.**



Kafedranın assistenti Murad Əlibəyov və Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, assistent Namiq Xəlilovun birgə təşkilatçılığı və moderatorluğu ilə keçirilən elmi seminarda “Uşaqlarda kriptorxizmin etiologiyası, klinika, diaqnostikası və müasir cərrahi yanaşma metodları” mövzusu müzakirə olunub. Seminarı kafedranın müdiri, professor Ramiz Poluxov açaraq müzakirəyə çıxarılan mövzunun aktuallığını diqqətə çatdırıb.

Bundan sonra kafedranın həkim-rezidentləri Hüseyn Bayramov, Lamiyə İsmayılzadə və Xəlil Aslanovun mövzuya dair məruzələri dinlənilib. Məruzələrdə kriptorxizmin etiologiyasında ətraf mühit amillərinin, embrional dönəmdə keçirilmiş xəstəliklər zamanı anatomik faktor və hormonal disbalansın rolundan bəhs edilib. Eyni zamanda xəstəliyin klinika və diaqnostikasında müasir instrumental və laborator metodlar, cərrahi yanaşma üsulları və hormonal terapiyanın əhəmiyyəti vurğulanıb.

Seminarda dr. Hikmət Alşanov və pediatr-neonatoloq dr. Sərxan Elbəyiyev də çıxış edərək mövzu ilə bağlı öz fikirlərini bölüşüblər.

# Əməkdaşımız iki beynəlxalq konqresdə ölkəmizi təmsil edib

**Martın 12-15-də Türkiyənin Bursa şəhərində 19-cu Beynəlxalq Uludağ Qış Pediatriya Konqresi keçirilib. Türkiyə, Şimali Kipr Türk Respublikası, İsveçrə, İngiltərə, Danimarka, İtaliya və digər Avropa ölkələrinin nümayəndələrinin də iştirak etdiyi bu konqres, pediatriyanın aktual problemlərinə həsr olunub.**




Uşaqlarda son illər geniş yayılmış infeksion, eləcə də endokrin, revmatoloji, qastroenteroloji xəstəliklər, sidik-ifrazat sistemi xəstəlikləri, xronik öskürəklərin səbəbləri, vizinq sindromu, obstruktiv yuxu apnoesi, ətraf mühitin, ekologiyanın, tütünün uşaq yaşı xəstəliklərinə təsiri, bronxial astma, allergik rinit, atopik dermatit, angioödem, qida və dərman allergiyası və s. allergik xəstəliklərin uşaqlarda gedişi, diaqnostikası və müalicəsində son yeniliklər və s. aktual mövzularda bir-birindən maraqlı məruzələr dinlənilib, geniş diskussiyalar aparılıb.

Ölkəmizi bu konqresdə təmsil edən universitetimizin II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova, həmçinin “Sözel bildiri” bölümünə sədrlik edib.

***

Martın 15-19-da isə Türkiyənin Kayseri şəhəri, Sabancı Kültür Mərkəzində Türkiyə Cümhuriyyətinin 100-cü, Çanaqqala Zəfərinin 108-ci ildönümünə həsr olunmuş “9-cu Erciyez Pediatriya Akademiyası Konqresi və 1-ci Beynəlxalq Türk Dünyası Uşaq Nevroloji Konqresi” keçirilib.

Konqresdə Türkiyə, Şimalı Kipr Türk Cümhuriyyəti, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan dəvət olunan alimlər və praktik həkimlər iştirak ediblər. Tədbir çərçivəsində özəl olaraq Azərbaycana həsr olunmuş “Tək millər, iki dövlət” adlı konfrans da baş tutub. Ölkəmizi bu mötəbər konqresdə tanınmış müğənni Azərin və ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimova təmsil ediblər. M.Kərimova konqresdə bölmə sədri olmaqla yanaşı, “Diqqət əksikliyi və hiperaktiv pozğunluğu olan uşaqlara pediatrın yanaşması” mövzusunda məruzə ilə çıxış edib və çıxışına görə mükafatlandırılıb. Yüksək səviyyədə keçirilən konqresə Türkiyənin tanınmış elm adamları, dövlət məmurları və millət vəkilləri də qatılıblar.

**Rayonda yaşayan pasiyent hamiləliyinin 12-ci həftəsində ATU-nun II Mamalıq və ginekologiya kafedrasının assistenti, həkim-ginekoloq Pərvanə Əliyevaya müraciət edib. O, 26 yaşında açıq ürək əməliyyatına (aortanın anevrizmasını aradan qaldırmaq) məruz qaldığını, əməliyyatdan bir il sonra ailə həyatı qurduğunu və hamilə olduğunu bildirib.**

# Tədris Cərrahiyyə Klinikasında daha bir uğurlu əməliyyat

## Gərgin və uzunmüddətli prosesdən sonra ana olan pasiyent klinikanın həkimlərinə təşəkkür edib



Bundan sonra hamilə qadın Tədris Cərrahiyyə Klinikasında P.Əliyevanın nəzarəti ilə EKQ, EXO və digər müayinələrdən keçib, professor, ə.e.x. Hicran Bağırova, professor Şəymən Qədimova, dosentlər Səfa Bağırova, İradə Tağıyeva, Sevinc Əliyeva, Ellada Sarıyeva, Gültəkin Cavadova, şöbə müdiri Turab Canbaxışov, anestezioloq Məhəmməd Şirinov, neonatoloq Sərxan Elbəyiyev, kardioloq Sara Bayramzadə və kardiocərrah tərəfindən konsultasiya olunub. Əgər hamiləlik zamanı ürək-damar sistemində heç bir ağırlaşma olmasa, maksimum 32 həftəyə qədər doğuşun aparılması qərara alınıb. Beləliklə, müalicə həkimi P.Əliyeva hamilə qadını kafedranın professor-müəllim heyətinin və kardioloqların iştirakı ilə ətraflı konsiliuma cəlb edib. Birgə konsiliuma görə, ürək-damar sisteminin vəziyyəti dəyərləndirilib. Hamilə qadın USM mütəxəssisi N.Əliyeva tərəfindən də müayinə edilib və mərkəzi cift gəlişi, eləcə də qonşu orqanlara invaziya şübhəsi inkar olunmayıb.

Pasiyent 33 həftəsində hospitalizasiya edilib və ona RDS profilaktikası, antibiotikoterapiya təyin olunub. Nəhayət, hamilə qadın “Aortanın stenozu ağır dərəcə. 33-34 həftə hamiləlik. Köndələn vəziyyət, Rh (-) mənsubiyyətli (qeyri-düz Kumbs reaksiyası zəif pozitiv), Anemiya II dərəcə” diaqnozu ilə əməliyyata götürülüb və qeysəriyyə əməliyyatı ilə doğuşu başa çatdırılıb. Əməliyyatın icrası professor Ş.Qədimova, assistent P.Əliyeva və baş laborant L.Ağakişiyevaya həvalə olunub. Əməliyyat zamanı diaqnoz təsdiqini tapıb və qanaxmanın qarşısını almaq üçün uşaqlıq boşluğuna Bakri balonu yerləşdirilib. Uğurla başa çatdırılan əməliyyatdan sonra zahı qadın 8 saat anesteziologiya və reanimatologiya şöbəsinin assistenti Emin Quliyevin nəzarətində olub. Daha sonra kafi vəziyyətdə şöbəyə köçürülüb. Həkim-neanotoloq Aygün Rüstəmxanlı tərəfindən qəbul olunan yenidoğulmuşun vəziyyəti də kafi qiymətləndirilib. Zahılığının 4-cü sutkasında ana və uşaq kafi vəziyyətdə mama-ginekoloq, kardioloq və kardiocərrah nəzarətində olmaq şərti ilə evə yazılıb.

“Təbib” qəzeti vasitəsilə müalicə həkimi Pərvanə xanımın timsalında Tədris Cərrahiyyə Klinikasının bütün tibbi personalına təşəkkürünü çatdıran pasiyent, xüsusi məsuliyyət tələb edən bu müqəddəs peşə sahiblərinə uğurlar arzulayıb.

# ATU-dan daha bir qalibiyyət

## Badminton komandamız XV Universiadanın qalibi olub

**Martın 16-17-də Azərbaycan Respublikası Gənclər və İdman, Elm və Təhsil nazirlikləri və "Gənclik" Tələbə İdman Cəmiyyətinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Badminton üzrə XV Respublika Universiadası keçirilib.**




ATU-nun "Təbib" idman klubunun məşqçi-müəllimi, Fəxri bədən tərbiyəsi və idman işçisi Nərgiz Mehdiyevanın rəhbərliyi ilə universitetin komandasını 4 oğlan (Emin Cəfərli, Nihad Həsənli, Noman Arshad, Khali Hasan və 4 qız (Ülkər Məmmədova, Ləman İsayeva, Gilsha Shareela, Amuliya P.Raj) tələbə-idmançı təmsil edib.

Bu barədə qəzetimizə "Təbib" İdman Klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru Qələndər Aslanov məlumat verib.

Onun sözlərinə görə, yarışda ölkənin 13 universitetinin tələbə-idmançıları mübarizə aparıb. Əsasnaməyə uyğun olaraq, peşəkarlardan ibarət olduğuna görə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının komandasına müsabiqədən kənar texniki 1-ci yer verilib. Digər 12 komanda ilə dairəvi sistemdə yarışlar keçirilib. Burada Tibb Universitetinin komandası ilə yanaşı, Dövlət İqtisad Universiteti, Dillər Universiteti, Bakı Slavyan Universiteti və Bakı Dövlət Universitetinin komandaları da favorit komandalar siyahısında idi.

Qızlardan ibarət komandamız gərgin mübarizədən sonra Bakı Slavyan Universiteti və Dillər Universitetinin komandalarını məğlub edərək I yerin sahibi olub. Oğlanlardan ibarət komandamız da Dövlət İqtisad Universiteti və Dillər Universitetinə qalib gələrək I yeri tutub. Sonda komandamızın hər bir iştirakçısına və komandanın rəhbərinə "Gənclik" Tələbə İdman Cəmiyyətinin diplom və medalı təqdim olunub.

Hazırda ümumilikdə xal hesabına görə, Azərbaycan Tibb Universitetinin komandası XV Universiadanın cədvəlində ölkə universitetləri arasında ön sırada gedir. Komandamıza növbəti idman yarışlarında da uğurlar arzulayırıq.

# Şagirdlərin ATU-ya ekskursiyası təşkil olunub

**Gənclərə təmənnasız təhsil verən "Fortis Academy" şirkətində təhsil alan şagirdlərin bu yaxınlarda Azərbaycan Tibb Universitetinə ekskursiyası baş tutub.**

Qeyd edək ki, bu tədris mərkəzində şəhid və qazi ailələrinin övladları ilə yanaşı, sosial təminatı zəif olan ailələrin övladları da ödənişsiz təhsil alır. Məqsədi təhsilə marağı olan, amma müəyyən səbəblərə görə təhsil ala bilməyən 9, 10, 11-ci sinif şagirdlərinə kömək göstərmək olan bu qurum mütəmadi olaraq şagirdlərin müxtəlif universitetlərə səfərini həyata keçirir.

Bu dəfə isə tədris mərkəzində 4-cü blok üzrə hazırlaşan şagirdlər Azərbaycan Tibb Universitetinə ekskursiyası təşkil olunub. ATU Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə şagirdlər tədris korpusları, kitabxana və zallar, kafedralarla əyani tanış olublar. Anatomiya, Histologiya və digər təməl kafedralarda şagirdlərə geniş məlumatlar verilib.

Ekskursiyanın sonunda təhsil mərkəzinin nümayəndəsi, müəllim Sevda Fərzəliyeva bildirib ki, əyani tanışlıq şagirdlərdə dərin iz buraxıb. Bu onların gələcəkdə universitet seçimi zamanı əhəmiyyətli rol oynayacaq.



# Ramazanda sağlam qidalanmaq üçün məsləhətlər

***Ramazan ayında sağlam şəkildə oruc tutmaq bədən fəaliyyəti üçün olduqca vacibdir. Xüsusən də imsak və iftar vaxtı qidalanma rejiminə diqqət etmək lazımdır.***

**Ramazanda sağlam qidalanmaq üçün bunları etmək faydalıdır:**

Porsiyalarımızı əvvəlcədən yaxşı şəkildə nizamlamalıyıq. Sağlam yeməkləri düzgün və miqdarından çox olmayacaq şəkildə yemək daha faydalıdır. Tərəvəz və meyvələr mədə və bağırsaqların fəaliyyətini artıracağı üçün həzm sistemimizi də rahatlaşdıracaq.

Ət, toyuq və balıq yeməklərini sobada bişirmək daha xeyirlidir. Bu bizim yediyimiz qidalardan ən yaxşı şəkildə faydalanmağımızı təmin edəcək.

Şirniyyatdan az istifadə etmək məsləhətdir. Çünki uzunmüddətli aclıqdan sonra qəbul edəcəyimiz şirniyyatlar qan şəkərinin yüksəlməsinə səbəb ola bilər.

Ramazan ayında oruc tutan insanların qarşılaşdığı əsas problemlərdən biri də susuz qalmaqla bağlıdır. Oruc zamanı bədənin su balansını qorunmaq və susuzluğun qarşısını almaq üçün bir sıra yollar mövcuddur.

Bəzi meyvələrin tərkibinin böyük hissəsi sudan ibarətdir. Sahurdan sonra susuzluq hiss etmək istəmirsinizsə, su miqdarı yüksək olan qarpız, portağal, ananas və banan kimi meyvələrdən istifadə edin.

Çiy tərəvəzlərdə yüksək miqdarda su var. Sahur zamanı çiy tərəvəz və göyərtidən ibarət salat bədəninizin susuz qalmasının qarşısını alacaq.

Ayran, qatıq, kefir kimi süd məhsulları orqanizmin su ehtiyacını ödəyir. Bu məhsulların kalorisi azdır, lakin uzun müddət toxluq hissi verir.

# Yer kürəsi əhalisinin 1 faizə qədəri epilepsiyadan əziyyət çəkir

**Epilepsiya qədim tarixə malik və indiyə qədər tam müalicəsi tapılmayan xəstəliklərdən biridir. Onun yeganə və əsas əlaməti təkrarlanan epileptik tutmalardır. Xəstəlik zamanı beyin qabığının müəyyən sahəsində - epileptogen ocaqda neyronlar sinxron şəkildə oyanır.**

Epilepsiya Xəstələri Günü və ya Bənövşəyi Rəng Günü ilk dəfə 2008-ci il martın 26-da qeyd olunub. Həmin il epilepsiyadan əziyyət çəkən doqquz yaşlı qız Kessidi Meqan özünün başqalarından heç də fərqlənmədiyini göstərməyə qərar verib. O, xəstəliyin ətrafdakılar tərəfindən dəliliyin yüngül forması kimi qəbul olunduğunu hiss etmişdi. Kessidi xəstəlik barədə yayılan mifləri dağıtmaq üçün "Bənövşəyi gün" yaratmağa nail olub. Onun başladığı təşəbbüsü əvvəlcə Kanadadakı Yeni Şotlandiya Epilepsiya Assosiasiyası dəstəkləyib, ardınca isə dünyanın başqa təşkilatları da ona tərəfdar çıxıblar. Bundan bir il sonra 100 min tələbə, 100-ə yaxın ictimai birlik və 100-dən artıq məşhur siyasətçi həmin təşəbbüsə qoşulub.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 65 milyon nəfər, Yer kürəsi əhalisinin 1 faizə qədəri epilepsiyadan əziyyət çəkir. Onlardan yalnız 25 faizi adekvat müalicə alır. Müasir dərmanlar 70 faiz xəstələrin ürəktutmalarından tamamilə xilas olmasına imkan verir. Həmin preparatlar səmərəli olmaqla yanaşı, az toksiki təsirə malikdir, əhval-ruhiyyəyə və psixikaya təsir etmir. Epilepsiya xəstələri təhsil alır, işləyir, ailə qurur, dünyaya sağlam övlad gətirir və tam normal həyat yaşayırlar.

**Allah rəhmət eləsin!**

Epidemiologiya və biostatistika, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı, Qidalanma və tibbi ekologiya kafedralarının əməkdaşları Epidemiologiya və biostatistika kafedrasının professoru Vaqif Vəkilova atası

**Nazim Vəkilovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Nailə İbrahimovaya bacısı

**Zöhrə İbrahimovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Azərbaycanın elmi ictimaiyyətinə ağır itki üz verib. Görkəmli kardioloq, tibb elmləri namizədi, Azərbaycan Tibb Universitetinin dosenti Fətulla İsmayıl oğlu Əlimərdanov ömrünün 79-cu ilində vəfat edib.**

# Tanınmış alimin xatirəsi onu tanıyanların qəlbində yaşayacaq



F.Əlimərdanov 1944-cü il avqustun 18-də Ordubad şəhərində anadan olub. 1962-1968-ci illərdə Azərbaycan Tibb İnstitutunda təhsil alıb. Əmək fəaliyyətinə 1969-cu ildə başlayan Fətulla Əlimərdanov 1973-cü ilədək Semaşko adına Bakı şəhəri 1 saylı Klinik Xəstəxanasında həkim-terapevt, 1973-74-cü illərdə Azərbaycan Tibb İnstitutunun Yoluxucu xəstəliklər kafedrasında assistent, 1974-90-cı illərdə ATİ-nin Hospital terapiyası kafedrasında assistent, 1990-2019-cu illərdə Azərbaycan Tibb Universitetinin I Daxili xəstəliklər və reanimatologiya kafedrasında dosent vəzifələrində çalışıb.

SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının 25 dekabr 1989-cu il tarixli qərarı ilə N.İ.Piroqov adına 2-ci Moskva Dövlət Tibb İnstitutunda Fətulla Əlimərdanov tibb elmləri namizədi elmi dərəcəsinə, Rusiya Federasiyasının Elm, ali təhsil və texniki siyasət üzrə ali təhsil Komitəsinin 19 noyabr 1992-ci il tarixli qərarı ilə Daxili xəstəliklər kafedrası üzrə dosent elmi dərəcəsinə layiq görülüb.

Azərbaycanda tibb elminin tədrisi və inkişafında dosent Fətulla Əlimərdanovun xüsusi əməyi var. Uzun illər ərzində tibb elminin müxtəlif sahələrinə aid apardığı araşdırmaları alimə ölkəmizdə və onun hüdudlarından kənarda geniş şöhrət qazandırıb. O, bir çox elmi əsərin, o cümlədən çoxsaylı monoqrafiya, dərslik və metodik vəsaitlərin müəllifidir.

F.Əlimərdanov ömrünün yarıdan çoxunu kardioloji problemlərin, xüsusən ürək qüsurlarının diaqnostikası və müalicə metodlarının araşdırılması və təkmilləşdirilməsinə həsr edib, o cümlədən elmi təbabətin müxtəlif metodları, xüsusən akupunktura (iynəbatırma) metodu ilə müalicə formalarının tətbiqi əsasında ölkəmizdə təbabətin inkişafına böyük töhfələr verib.

Qayğıkeşliyi, sadəliyi, nəcibliyi və təvazökarlığı ilə hörmət qazanmış görkəmli alim, mahir pedaqoq və səmimi insan Fətulla Əlimərdanovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Etibarsız sayılır**

Görnü Zeyneb (qrup 418A2b); Yaghoubi Mohammad Rahim (qrup 117İ3); Roumiani Parvaneh Ghasein (qrup 117İ3); Marghoubi Sina Ebrahim (qrup 117İ3); Özlem Tunçalam (qrup 120Aİ2b); Şevval Onat (hazırlıq qrupu); Aynur Gedik Tezcan (qrup 221İ1a); Noshin Majidzadenin (qrup 422-6a) tələbə bileti, Maleki Shisheh Amirmohammad Akbar oğlunun (qrup 118İ1a) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0006
Sayı 800